AZƏRBAYCAN ORDUSU

# Hərbi liseydə şahmat turniri

*Bu günlərdə C.Naxçıvanski adına Hərbi Liseydə Azərbaycanın Milli Qəhrəmanı Əhədov Elşad Saday oğlunun xatirəsinə həsr olunmuş şahmat turniri başlanıb. Turnir açıq elan olunduqdan sonra ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Mərasimdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

Hərbi liseyin fiziki hazırlıq bölməsinin rəisi Fərhad Əliyev çıxış edərək bildirdi ki, məktəbimizdə torpaqlarımızın azadlığı və müstəqilliyi uğrunda şəhid olanların xatirəsinə həsr olunmuş müxtəlif idman yarışlarının keçirilməsində əsas məqsəd kursantlarda hərbi vətənpərvərlik tərbiyəsini yüksəltmək və gənclərə idmanı sevdirməkdir. "Torpaq uğrunda şəhid olanlar unudulmur. Şahmat turniri Azərbaycanın Milli Qəhrəmanı Elşad Əhədovun xatirəsinə həsr olunub. O, 4 mart 1968-ci ildə Masallı rayonunun Təzə Alvadı kəndində dünyaya göz açıb. 1975-ci ildə həmin kəndin orta məktəbində birinci sinifə gedib. 1982-ci C.Naxçıvanski adına Hərbi Liseyə daxil olub. Liseyi uğurla bitirəndən sonra hərbi təhsilini Ukraynada davam etdirib. Keçmiş Sovet ordusunda bölük komandiri olan gənc zabit bir müddətdən sonra dogma Vətənə dönüb."

- Erməni işgalçılarının Azərbaycan torpaqlarına hücumundan sonra Elşad cəbhə bölgəsinə yola düşür, - deyə natiq bildirir. - Gənc zabitin döyüş yolu Füzulinin və Beyləqanın müdafiəsindən keçir. Onun minaladığı sahədə 8 düşmən tankı və onlarla erməni yaraqlısı məhv edilir.



Son döyüşü 11 dekabr 1993-cü ildə Ağdaş yüksəkliyi uğrunda olur. Komandiri olduğu bölük hücuma keçir. Sayca iki dəfədən çox olan ermənilər hücumun qarşısını almaq üçün güclü müqavimət göstərirlər. Qeyri-bərabər döyüşdə cəsur komandir ağır yaralanır. Onun həyatını xilas etmək mümkün olmur. Ailəli idi. İki uşagı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 14 dekabr 1993-cü il tarixli fərmanı ilə Əhədov Elşad Saday oğlu döyüşlərdə göstərdiyi şücaətə görə ölümündən sonra "Azərbaycan bayrağı" ordeni ilə təltif edilir. Zabitin döyüşlərdə göstərdiyi qəhrəmanlıq və cəsarət bir ildən sonra daha da yüksək qiymətləndirilib. Ölkə başçısının 1994-cü il tarixli fərmanı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilib.

Bir vaxtlar təhsil aldığı orta məktəb hazırda onun adını daşıyır.

Çıxışlar yekunlaşdıqdan sonra yarış başlandı.

Şahmat turniri dekabrın 16-dək davam edəcək. Hər gün komanda üzvləri arasında yarış keçiriləcək. Turnir beynəlxalq qaydalara uyğun olaraq dairəvi sistem üzrə təşkil edilib. Sonda qaliblər Hərbi liseyin rəhbərliyi tərəfindən mükafatlandırılacaq.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**